**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İCTİMAİ SƏHİYYƏ SİSTEMİNDƏ BİOETİK PRİNSİPLƏR: AZƏRBAYCANIN SİYASİ KURSU VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

İxtisas: 5904.01 - Siyasi institutlar və sistemlər

Elm sahəsi: siyasi elmlər

İddiaçı**:** **Lalə Afiq qızı Cəfərova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbərlər: hüquq elmləri doktoru, tibb elmləri doktoru, professor
**Vüqar Qurban oğlu Məmmədov**

siyasi elmlər doktoru, dosent
**Xalid Qüdrət oğlu Niyazov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, dosent
**Kənan Hüseyn oğlu Allahverdiyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ləman Zahid qızı Qarayeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Zuriyə Ruslan qızı Qarayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cəmiyyətin müasir inkişafı, qloballaşma prosesləri dövlətlərin və dünya birliyinin həyatının bütün sahələrinin qarşılıqlı asılılığının artmasına səbəb olur, siyasi kursların formalaşmasına təsir göstərir. Millətin sağlamlığı ölkənin inkişaf potensialını müəyyən edən əsas göstəricilərdən biri olmaqla, onun qorunması istiqamətində məqsədyönlü siyasətin işlənib hazırlanmasını şərtləndirir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz çıxışlarında "*hər bir cəmiyyət və dövlət üçün*" çox zəruri sahə hesab etdiyi səhiyyənin rolunu həmişə vurğulayırdı; Heydər Əliyev ölkənin gələcək inkişafını görərək qeyd edirdi ki, "*səhiyyə üçün lazım olan bütün tədbirlər görülür və gələcəkdə də görüləcəkdir*"[1]. Bu gün koronavirus pandemiyasının öhdəsindən uğurla gələn bir ölkə kimi Azərbaycan üçün səhiyyə siyasəti xüsusi əhəmiyyət kəsb edir və ətraflı araşdırma tələb edir. Beləliklə, koronavirus pandemiyası fonunda, məsələn, Azərbaycanda, uğurlu xarici siyasət fəaliyyəti ilə BMT-nin xüsusi Qətnaməsinin qəbulunu təmin edən Prezident İlham Əliyevin həlledici rolu müəyyən olunmuşdur, daxili siyasət isə - pandemiyaya qarşı mübarizə tədbirlərinin vaxtında işlənib hazırlanmasını və qəbulunu təmin edib ki, bu da tədqiqat işində ətraflı nəzərdən keçirilir.

Səhiyyə dövlət sisteminin tərkib hissəsi kimi müxtəlif qurumlar, o cümlədən siyasi qurumlar tərəfindən həyata keçirilən tədbirlərin birləşdirilməsi yolu ilə əlaqələndirilən, əhalinin müdafiəsi vasitəsilə strateji təhlükəsizliyi təmin edir. Səhiyyə siyasətinin həyata keçirilməsində səhiyyə sistemi kontekstində universal bioetik prinsiplərdə də həmçinin ifadə olunan etik prinsiplər mühüm rol oynayır.

Beləliklə, təqdim olunan dissertasiya işinin mövzusunun **aktuallığını** təsdiq edən aşağıdakı məqamları qeyd etmək olar:

Birincisi, ictimai sağlamlığın qorunması siyasətinin (sağlamlığın siyasi determinantları) və onun həyata keçirilməsi ilə

[1] Azərbaycan səhiyyəsi öz uğurlarına görə Ulu öndər Heydər Əliyevə minnətdardır // Yeni Azərbaycan. - 2017, 3 may. - s. 6.

bağlı etik məsələlərin öyrənilməsi böyük maraq doğurur.

İkincisi, əhalinin sağlamlığının qorunması ilə bağlı məsələlərin əhəmiyyətini və onların siyasətlə əlaqəsini aydın şəkildə ortaya qoyan koronavirus pandemiyası (COVID-19) fonunda ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında həyata keçirilən Azərbaycan Respublikasının müasir siyasi kursunun səhiyyə siyasəti prizmasında öyrənilməsi xüsusi maraq doğurur. Azərbaycanın xarici siyasətinin uğurlarını "vaksin diplomatiyası" prizmasında öyrənmək və 44 günlük Vətən müharibəsi fonunda ölkənin sabitliyini və təhlükəsizliyini təmin edən ümumi tədbirləri öyrənmək xüsusilə vacibdir.

Üçüncüsü, etika, xüsusən də bioetika ilə bağlı məsələlər demokratik inkişaf yolu seçmiş ölkəmiz üçün xüsusilə aktualdır. Bioetik prinsiplərin daxili siyasi kursda əks olunmasının təhlili siyasət kontekstində diqqət obyektinə çevrilir, çünki əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin müasir inkişafında çoxsaylı dövlət qanun və proqramlarında, daxili təhlükəsizliyin və sosial siyasətin mühüm tərkib hissəsi kimi əhalinin sağlamlığının qorunması məsələlərinə böyük diqqət yetirilir.

Dördüncüsü, Azərbaycanın müasir siyasətində əhalinin sağlamlığı məsələləri ilə yanaşı, multikulturalizm, vicdan və dini etiqad azadlığı, gələcək nəsillərin qorunması, ətraf mühitin mühafizəsi, davamlı inkişaf və s. kimi etik məsələlərə getdikcə daha çox diqqət yetirilir. Azərbaycanın xarici siyasətində etik prinsiplərin üstünlüyü hətta müharibə kimi bir hadisədə də özünü büruzə verdi. Belə ki, 13 aprel 2021-ci il tarixində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı Azərbaycanın Vətən Müharibəsində (İkinci Qarabağ Müharibəsi) qələbəsindən sonra regionun münaqişədən sonrakı inkişafına həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı hərbi qulluqçuların davranışına qoyulan tələblərlə bağlı mənəvi aspektlərin vacibliyini vurğulayaraq, bunu qeyd etmişdir: "*Azərbaycan yalnız XXI əsrin müharibəsini deyil, eyni zamanda, yeni mənəvi qaydalar əsasında döyüş aparır*"[2]. Prezidentin bu sözləri

---

[2] Президент принял участие в конференции «Новый взгляд на Южный Кавказ: Постконфликтное развитие и сотрудничество» в ADA: [Электронный

ölkəmizdə etik prinsiplərə göstərilən diqqəti bir daha vurğulayır.

Beşincisi, bioetik prinsiplərin Azərbaycan Respublikasının və Türkiyə, Belarus, ABŞ, Almaniya, Fransa və s. kimi dövlətlərin milli səhiyyə siyasətində mühüm amil kimi nəzərə alınması, eləcə də beynəlxalq Avropa Birliyi kimi qurumların fəaliyyəti çərçivəsində təhlili məqsədəuyğun görünür.

Altıncısı, siyasi institutların müasir iş sahələri kimi Səhiyyə siyasəti, Qlobal Sağlamlıq Diplomatiyası (QSD, *ing*. Global Health Diplomacy) və Qlobal Səhiyyə İdarəçiliyi (QSİ, *ing*. Global Health Governance) elmi sahələrin, öyrənilməsi tədqiqat baxımından xüsusi maraq doğurur.

Yeddincisi, həm milli, həm də beynəlxalq səviyyədə koronavirus pandemiyasının yaratdığı çağırışlar və onların siyasi tərəfləri yeni tədqiqatlar tələb edir, çünki son illər COVİD-19 fonunda siyasət və sağlamlıq məsələləri arasındakı əlaqənin öyrənilməsi, nəinki bu əlaqənin, həm də QSD və QSİ-nin öyrənilməsinin vacibliyinin təsdiqidir və bu müxtəlif siyasi institutların kompleks işlərinin əsasını təşkil edir və ölkənin siyasi kursundan asılı olaraq həyata keçirilir.

Beləliklə, əvvəllər qeyd edilmiş müddəalar və məqamlar bu dissertasiyanın tədqiqat mövzusunun aktuallığını təsdiq edir və universal bioetik prinsiplərin həyata keçirilməsi və ayrı-ayrı ölkələr və beynəlxalq institutlar çərçivəsində beynəlxalq təcrübənin nəzərə alınması kontekstində Azərbaycan Respublikasının əhalinin sağlamlığının qorunması siyasətinin daha ətraflı təhlilinin zəruriliyini şərtləndirir.

Milli elmi ədəbiyyatda təhlükəsizliyin, siyasi sabitliyin təmin edilməsi, beynəlxalq strukturlarla qarşılıqlı əlaqə məsələlərinə həsr olunmuş çoxlu sayda tədqiqat işləri mövcüddur. Bunlar ilk növbədə Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsərləri və çıxışlarıdır[3].

---

ресурс] / АРА. – Апрель 14, 2021. URL: https://apa.az/ru /politicheskie _novosti _azerbaydjana/Prezident-prinyal-uchastie-v-konferencii-Novyj-vzglyad-na-Yuzhnyj-Kavkaz-Postkonfliktnoe-razvitie-i-sotrudnichestvo-v-ADA-colorred OBNOVLENOcolor-colorredVIDEOcolor-442855.

[3] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c. 46. - 2013. - 523 s.; Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: Çıxışlar, nitqlər,

Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın "Evtanaziya və tibbdə humanistlik problemi" və "Biz həyatı seçirik (Evtanaziya sosiologiya güzgüsündə)" monoqrafik əsərləri bioetikanın öyrənilməsində əvəzsiz əhəmiyyətə malikdir[4].

Dünyanın əksər ölkələrində olduğu kimi ölkəmizdə də bioetikanın inkişafı tibbi etikanın öyrənilməsi ilə başlanmışdır. Akademik Zərifə xanım Əliyevanın əsərlərində tibbi etika və deontologiya məsələlərindən bəhs edilirdi. O, əsərlərində pasiyent ilə həkim arasında etibarlı münasibətin olmasının vacibliyini geniş şəkildə işıqlandırmışdır[5]. Biotexnologiyanın tədqiqi məsələləri akademik Cəlal Əliyevin əsərlərində öz əksini tapmışdır[6]. Məhz C.Əliyev biologiya və biotexnologiya sahəsində görkəmli Azərbaycan alimi olmaqla 1999-cu ildə yaradılmış Bioetika, Elm və Texnologiyanın Etikası üzrə Milli Komitəyə rəhbərlik etmişdir.

Əsas siyasi amillər, o cümlədən siyasi hakimiyyətin rolu, mövcud siyasi sistemin təsiri və Azərbaycanın və digər ölkələrin daxili və xarici

---

bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar: [114 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, - c. 114. - 2021. – 392 s.; Heydər Əliyev. Elektron Sənədlər Toplusu. Seçilmiş fikirləri: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. "Heydər Əliyev. Müstəqillik yolu" kitabından. - Bakı, 1997. – 45 s. URL: https://files.preslib.az/projects/toplu/v2/f1_4.pdf; Heydər Əliyev. Müstəqilliyimiz əbədidir [2 cilddə] / red. İ.Həbibbəyli, tərt. ed. A.Əliyeva-Kəngərli. - Bakı: Şərq-Qərb, - c. 1 - 2013. - 632 s.; Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə: II hissə / Azərbaycan Respublikası Prezidentinin Katibliyi. - Bakı: Nurol, - 2001. – 480 s.; Heydər Əliyev və qanunçuluq: çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar / red. X.Vəliyev. - Bakı: Adiloğlu, - I kitab. - 2008. - 426 s.; İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir: çıxışlar, nitqlər, görüşlər, təbriklər / bur. məsul S.Salahlı; tərt. ed. N.Məmmədov, C.Əlifzadə. - Bakı: Elm və Təhsil, - 2015. - 616 s.; İlham Əliyev: bizim siyasətimiz bizim işimizdir / tərt. M.Əmirov. - Bakı: Çaşıoğlu, - 2007. – 160 s.

[4] Mehriban Əliyeva: [Elektron resurs] / Mehriban Əliyeva | Azərbaycanın Birinci Xanımı. – 2015. URL: https://mehriban-aliyeva.az/site/biography Mehriban Əliyeva. Tərəqqi və Yüksəliş yolları ilə / red. A.H.Naxçıvanlı. - Bakı, - c. 1. - 2014. - 412 s.

[5] Алиева, З.А. Высокое призвание / З.А.Алиева. - Баку, - 1982. – 58 с.

[6] Əliyev, C.Ə., Məmmədov, Ə.Ç. Gen mühəndisliyi, biotexnologiya, təhlükəsizlik problemləri və bioetika // - Bakı: Bioetika, elm və texnologiyaların etikası problemləri (məruzələr toplusu), - 2005. - s. 7-19.

siyasəti üçün xarakterik olan cəhətlər və məsələlər aşağıdakı müəlliflərin əsərləri əsasında tədqiq edilmişdir: X. Niyazov, İ.Məmmədov, A.N.Abbasbəyli, A.M.Mirabdullayev, İ.M.Hüseynova, N.Ələkbərova, S.C.Məmmədova, E.Nəcəfov, M.İsgəndərzadə, N.İ.Məmmədov, B.A.Aslanbəyli, S.Məlikova, L.A.Məmmədova, X.İbrahimov, A.Əliyeva, V.M.Məmmədzadə, A.C.Muradov, A.H.Naxçıvanlı, C.A.Eyvazov, X.Quliyeva, İ.Həsənov, A.H.Rzayev, F.P.Rəhmanov, Ş.Əlizadə və s.[7]

Ölkəmizdə bioetika məsələlərinin çoxşaxəli aspektlərinin öyrənilməsi baxımından milli alimlərin Bioetika üzrə YUNESKO kafedralarının beynəlxalq şəbəkəsinin Azərbaycan bürosunun rəhbəri, t.e.d., h.e.d., prof. V.Q.Məmmədovun və h.e.d., prof. A.İ.Mustafazadənin işləri xüsusi köməklik göstərmişdir. Belə ki, onların çoxsaylı əsərlərində bioetika elmi istiqamətinin müxtəlif aspektləri tədqiq edilmiş və onların öyrənilməsi bu məsələlərin səhiyyə siyasətinin formalaşmasına və fəaliyyətinə təsirlərini müəyyən etməyə imkan vermişdir.[8]

---

[7] Ələkbərova, N. Siyasi elmin müasir problemləri. Dərslik / N.Ələkbərova. - Bakı: Elm və təhsil, - 2013. - 372 s.; Hüseynova, İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri / İ.M.Hüseynova. - Bakı: Füyuzat, - 2021. - 224 s.; Xoşməramlı səfir / elmi red. İ.M.Hüseynova. - Bakı: ŞƏMS, - 2005. - 192 s.; Niyazov, X. Bioetika haqda nə bilirik // Azərbaycan. - 2011, - 26 oktyabr. s. 11; Məmmədova, S.D. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri / S.D.Məmmədova. - Bakı: AVROPA, - 2017. - 232 s.; Məmmədov, İ. Azərbaycan pandemiya dövründə (2020-ci il, yanvar-iyun) koronavirusla mübarizə: müstəqil dövlətin yeni təcrübəsi // - Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, - 2020. 2 (70), - s. 147-172.; Nəcəfov, E. COVID-19 Pandemiyası və Multikulturalizm // - Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, - 2020. 2 (70), - s. 133-146.; Mirabdullayev, A.M. Müstəqil Dövlətlər Birliyi müasir beynəlxalq münasibətlərdə: monoqrafiya / A.M.Mirabdullayev. - Bakı: Elm, - 2012. - 196 s.; Məmmədzadə, V.M. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri / V.M.Məmmədzadə, X.İskəndərov; - Bakı: UNİCOPY, - 2020. - 145 s.; Eyvazov, C. Strateji Tədqiqatlara Giriş. Dərs vəsaiti / C.Eyvazov. - Bakı: Elm və təhsil, - 2017. - 200 s.; Abbasbəyli, A.N. Müasir beynəlxalq münasibətlər və qloballaşma: dərslik / A.N.Abbasbəyli. - Bakı: Şirvannəşr, - 2007. - 164 s. və s.

[8] 44 Günlük Diplomatiya dərsləri / ideya müəl. A.Mustafazadə. - Bakı: Elm və təhsil, - 2021. - 251 s.; Mammadov, V. Political, Scientific and Management Aspects of Coronavirus Pandemics: Considerations from Azerbaijan Perspective // Medicine and Law, - 2020. 39 (2), - p. 115-130.; Mammadov, V. Qualitative Study of Pre-Vaccine Decrease of Mortality from COVID-19 / V.Mammadov, L.Jafarova; in Biotechnology to Combat COVID-19. - London: IntechOpen, - 2022. – p. 607-

Daxili siyasət prizmasında əhalinin sağlamlığına təsir edən amillərin öyrənilməsi zamanı səhiyyənin ayrılmaz hissəsi olan əhalinin sosial müdafiəsi kontekstində qlobal siyasət məsələləri, o cümlədən koronavirus pandemiyasının siyasətə təsiri, sağlamlıq və siyasət arasındakı əlaqənin ümumi problemlərini öyrənmək üçün xarici ədəbiyyat kimi aşağıdakı müəlliflərin əsərlərindən istifadə edilmişdir: M.Ç. Barsbay və A. Altın, E. Sedaşov və M. Moral, A.N. Üste və U.Aydın, J.Nynyeş, T.M.Fazal, İ.Kikbuş, G.D.Nicholas, R. Higgot, M.B. Broun, W. Reich, K. Wendt, R. Soltman, R. Busse, H. ten Have, R. Taylor, V. Navarro, K. Weissert, F.Z. Xəsənov, N.S.Qriqoryeva, K.A.Boqma, A.V.Drozdov, M.Ozerov, D.Z.Mutagirov, A.M.Karpenko və s.[9]

Beləliklə, elmi ədəbiyyatda beynəlxalq münasibətlər və diplomatiya sistemində müxtəlif amillərə, müxtəlif maraq qruplarının siyasi proseslərdə roluna və yerinə, və s. məsələlərə həsr olunmuş çoxsaylı əsərlər təqdim olunur. Lakin politologiya baxımından bioetik prinsiplərin həyata keçirilməsi prizmasında siyasi institutların fəaliyyət istiqamətlərinin formalaşması, QSD və QSİ kontekstində səhiyyə siyasəti əvvəllər öyrənilməmişdir. Təqdim olunan mövzunun kifayət qədər işlənməməsi tədqiqatın istiqamətlərini göstərməklə onun öyrənilməsi və təhlili ehtiyacını əsaslandırdı.

---

627.; Mustafayeva, A.İ. İnsan hüquqlarının müdafiəsi bioetikanın tərkib hissəsi kimi / A.İ.Mustafayeva. - Bakı: Apostrof çap evi, - 2012, - 131 s.

[9] Barsbay, M.Ç, Altın, A. An Assesment of the Healthy City Indicators' Effects on Urban Security // - Istanbul: Siyasal: Journal of Political Sciences, – 2020. 29, №.1, – p. 51-68.; Sedashov, E., Moral, M. The Reliability of COVID-19 Data in the Shadow of Anti-Pandemic Measures' Cancellation // - Istanbul: Siyasal: Journal of Political Sciences. – 2022. 31, №.1. – p. 91-114.; Üste A.N., Aydin U. COVID-19 Pandemisi ve siyasal alanda olasi gelişmeler: Türkiye'den bir analiz // International Congress of Eurasian social sciences-4, - Bodrum/MUĞLA: Bildiri tam metinler Konge e-kitabi, - 15-18 Ekim, - 2020, – s. 26-35.; Nunes, J. Health, politics and security // Centro de Estudos Sociais da Universidade de Coimbra: e-cadernos ces. – 2012. №. 15, - p. 142-164.; Fazal, T.M. Health diplomacy in pandemical times // International Organization, – 2020. 74 (S1), – p. E78-E97.; Health – A Political Choice: Solidarity Science Solutions / ed. I.Kickbusch, J.Kirton. – London: GT Media Group Ltd., - 2021. – 40 p.; Nicholas, H.G. The United Nations As a Political Institution 5th Edition / H.G.Nicholas. - New York: Oxford University Press, - 1975. - 272 p. və s.

**Tədqiqatın obyekti və predmeti**. Bu dissertasiya işinin tədqiqat obyekti Azərbaycanın siyasi kursu və səhiyyə sistemində bioetik prinsiplərin tətbiqi, əhalinin sağlamlığının qorunması siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində beynəlxalq təcrübədir. Tədqiqatın predmeti ümumbəşəri bioetik prinsiplərin həyata keçirilməsi yolu ilə əhalinin sağlamlığının qorunması üzrə bu siyasətin xüsusiyyətləri və bu proseslərin Azərbaycan Respublikasının dövlət siyasətində əks olunmasıdır.

**Tədqiqatın məqsədi və vəzifələri**: Təqdim olunan tədqiqatın məqsədi Azərbaycanın və bir sıra digər ölkələrin təcrübəsinin öyrənilməsinə əsaslanaraq, milli və beynəlxalq səviyyədə siyasi institutlar tərəfindən səhiyyə siyasəti prizmasında universal bioetik prinsiplərin həyata keçirilməsi siyasətinin hərtərəfli təhlilinin aparılmasıdır.

Bu məqsədə çatmaq üçün müəllif tərəfindən aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmiş və yerinə yetirilmişdir:

–bioetika elmi istiqamətinin yaranma tarixini və bioetik prinsiplərin həyata keçirilməsinin siyasi aspektlərinin öyrənnilməsi;

–dövlət siyasəti prizmasında əhalinin sağlamlığının qorunması məsələlərini öyrənmək və bu kontekstdə etik problemlərin və bioetik prinsiplərin rolununun nəzərdən keçirilməsi;

–bioetik prinsiplərin həyata keçirilməsi kontekstində ayrı-ayrı ölkələrin, məsələn, Türkiyə, ABŞ, İtaliya, Almaniya, Fransa və s.-nin siyasət təcrübəsini, habelə bu istiqamətdə beynəlxalq institutların (təşkilatların) fəaliyyətinin təhlil edilməsi;

–Qlobal Səhiyyə Diplomatiyasının (QSD) və Qlobal Səhiyyə İdarəçiliyinin (QSİ) əhalinin sağlamlığının qorunması kontekstində, xüsusən də koronavirus (COVID-19) pandemiyası nümunəsindən istifadə edərək, siyasi institutların fəaliyyət sahələri kimi xarakterizə edilməsi;

–əhalinin sağlamlığının qorunması sahəsində Azərbaycanın müasir siyasi kursunun vəzifələri və prioritetlərinin təhlil edilməsi;

–dövlət siyasətində və əhalinin sağlamlığının qorunması üzrə qanunvericilikdə bioetik prinsiplərin əks olunmasını, həmçinin COVİD-19 koronavirus pandemiyası fonunda Azərbaycanın xarici siyasət uğurlarını tədqiq etmək;

–Azərbaycanın müasir dövlət siyasəti çərçivəsində bioetik prinsiplərin həyata keçirilməsi üçün yeni kursların və proqramların tətbiqi üçün təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat zamanı həm empirik, həm də nəzəri metodlardan istifadə edilmişdir. Təqdim olunan işin nəzəri əsası tədqiqat obyektinin bir çox komponentlərlə müəyyən edilmiş bütövlük kimi öyrənilməsini təmin edən fənlərarası yanaşma metodundan istifadə etməklə formalaşmışdır.

Metodoloji vasitələr politologiyanın təhlili və sintezi, sənədlərin və siyasi proqramların müqayisəsi metodlarına uyğun formalaşmışdır. Tədqiq olunan materialların ümumiləşdirilməsi, onların təhlili və sistemləşdirilməsi bioetikanın elmi sahəsinin inkişafının ümumi tendensiyalarını, eləcə də QSD və QSİ sahələri kontekstində universal bioetik prinsiplərin əhəmiyyətini formalaşdırmağa imkan yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiya tədqiqatı nəticəsində əldə edilmiş aşağıdakı müddəalar əsaslandırılır və müdafiyəyə.. çıxarılır:

1. Əhalinin sağlamlığının qorunması məsələləri dövlət siyasəti prizmasında, o cümlədən Azərbaycanda, həyata keçirilməsi daha çox etik və universal bioetik prinsiplərlə müəyyən edilən səhiyyə siyasətini formalaşdırır. Bu prinsiplərin formalaşması tarixən əsasən siyasi amillərlə müəyyən edilmiş, bu da biosiyasətin və sağlamlığın siyasi determinantlarının öyrənilməsi istiqamətlərinin formalaşmasına səbəb olmuşdur.

2. Siyasi institutlar (ilk növbədə Azərbaycan siyasi sistemi kontekstində Prezidentlik institutu) ictimai səhiyyə/sağlamlıq siyasətinin qorunması və universal bioetik prinsiplərin həyata keçirilməsi məsələlərində fəal iştirak edirlər.

3. Qlobal əhəmiyyət kəsb edən məsələlərdə, koronavirus (COVID-19) pandemiyasının açıq şəkildə nümayiş etdirdiyi kimi, səhiyyə sahəsi siyasət sahəsinə keçir və bu, tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılmasını və milli siyasi institutların müvafiq işini tələb edir.

4. Xarici siyasət institutlarının səhiyyə sahəsində işi tədqiqi praktiki əhəmiyyət kəsb edən "Qlobal Səhiyyə Diplomatiyası" (QSD) və "Qlobal Səhiyyə İdarəçiliyi" (QSİ) kimi müstəqil tədqiqatların obyektinə çevrilir.

5. Müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda siyasi kurs prizmasında universal bioetik prinsiplərin işlənib hazırlanması və həyata keçirilməsi daxili siyasətdən asılıdır və ya müstəqil surətdə baş verə bilər, ya da daha çox qərarları sonradan milli səviyyədə həyata keçirilən, dövlət fəaliyyətinin müvafiq sahələrini təşkil edən BMT, YUNESKO, ÜST, və s. kimi beynəlxalq təşkilatların təsiri ilə müəyyən oluna bilər.

6. Əsası Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş demokratik inkişaf və multikulturalizm yolunu seçmiş Azərbaycanın müasir sosialyönümlü siyasətindən irəli gələn etik dəyərlər AR-nın Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən ölkənin daxili və xarici siyasətinin əsasını təşkil edən qanunvericilik sənədlərində və çoxsaylı dövlət proqramlarında öz əksini tapmışdır. Koronavirus pandemiyası fonunda Prezident İlham Əliyevin uğurlu siyasi kursu 44 günlük Vətən müharibəsində qələbəni təmin etmiş, xarici siyasət BMT-nin xüsusi Qətnaməsinin qəbulu kimi bir çox uğurlarla səciyyələnmiş, daxili siyasət isə ölkədə sosial sabitliyi və rifahı təmin etmişdir.

7. Beynəlxalq təcrübə nöqteyi-nəzərindən Azərbaycanda səhiyyə ilə bağlı məsələlərin müxtəlif səviyyədə həllinə cəlb olunmuş siyasətçilər və attaşelər üçün QSD və QSİ sahəsində xüsusi kursların və həmçinin siyasət və səhiyyə sahələrini əhatə edən ikili ixtisasların tətbiq edilməsi əsaslandırılır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, bu dissertasiya Azərbaycan Respublikasında səhiyyə siyasətinin həyata keçirilməsinin müxtəlif aspektlərini universal bioetik prinsiplərin həyata keçirilməsi prizmasında araşdıran ilk dissertasiyadır.

Bu dissertasiya bir neçə istiqamətdə elmi yeniliyi təmsil edir:

1) yerli elmi ədəbiyyatda ilk dəfə olaraq bioetik prinsiplər siyasi baxımdan dərindən öyrənilir; bioetik prinsiplərin həyata keçirilməsi prizmasında siyasi institutların fəaliyyət istiqamətlərinin formalaşması əvvəllər öyrənilməmişdir. Əhalinin sağlamlığının qorunması daxili və xarici siyasətin formalaşmasında mühüm aspektlərdən biri kimi nəzərdən keçirilir, səhiyyə siyasəti kontekstində siyasi institutların fəaliyyət sahələrindən birini təmsil edir ki, bu da öz növbəsində bir çox etik problemlərlə və bioetik prinsiplərlə müəyyən

edilir;

2) bioetik prinsiplərin həyata keçirilməsinə ayrı-ayrı ölkələrin siyasəti kontekstində, eləcə də müxtəlif beynəlxalq təşkilatların iş prizmasından baxılır;

3) QSD və QSİ mövzuları üzrə, xüsusən də qlobal və milli səhiyyə amili kimi təqdim olunan və siyasətə əhəmiyyətli təsir göstərən koronavirus pandemiyası nümunəsində, fundamental işlər həmçinin siyasi qurumların onun fonunda fəaliyyəti və bu məzmunda bioetik prinsiplərin təhlili müəyyən edilməmişdir;

4) Azərbaycan Respublikasının əhalinin sağlamlığının qorunması sahəsində siyasi kursunun bioetik aspektləri və bu istiqamətdə dövlət siyasətinin prioritetləri ətraflı öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın əsas nəticələri və müddəaları əhalinin sağlamlığının qorunması (sağlamlıq siyasəti) məsələləri ilə bağlı dövlətin daxili və xarici siyasətinin mühüm hissəsinin formalaşmasında bioetik prinsiplərin rolunun öyrənilməsində faydalı ola bilər. Bundan başqa, tədqiqatın nəticələri səhiyyə siyasəti, QSD və QSİ sahəsində mütəxəssislərin təhsilində, o cümlədən bu sahələrdə çalışan şəxslərin ixtisasartırma kurslarında, yeni elmi tədqiqat sahələrinin və kadrların hazırlanmasında istifadə edilə bilər. Onlardan metodiki vəsaitlərin, əhalinin sağlamlığının qorunması siyasəti sahəsində ixtisaslaşdırılmış proqramların işlənib hazırlanmasında və müvafiq sənədlərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas müddəaları və elmi nəticələri yerli və beynəlxalq jurnallarda dərc olunmuş məqalələrdə, tezislərdə, habelə respublika və beynəlxalq konfransların materiallarında öz əksini tapmışdır. Tədqiqat problemi ilə bağlı ümumilikdə 15 elmi məqalə dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda hazırlanmışdır

**Dissertasiya işinin strukturu**. Dissertasiya giriş, üç fəsil, o cümlədən 9 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavədən ibarətdir. Giriş – 32 399, I fəsil – 66 058, II fəsil – 89 769, III fəsil – 61 854, nəticə - 9 885 işarə. Dissertasiya işinin ümumi həcmi 154 səhifədir (259 965 işarə).

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində dissertasiya tədqiqatının mövzusunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə dərəcəsi qiymətləndirilir, məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə təqdim olunan müddəalar əks olunur, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti qeyd edilir.

**"İctimai sağlamlığın qorunması və universal bioetik prinsiplərin həyata keçirilməsi sahəsində müasir siyasət"** adlı I fəsil qeyd olunan mövzunun mərhələli şəkildə təhlil edildiyi 3 paraqrafı əhatə edir.

**"YUNESKO-nun 2005-ci il Bioetika və İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi universal bioetik prinsiplərin mənbəyi kimi"** adlı fəslin birinci paraqrafında müəllif bioetika anlayışının mənşəyini, eləcə də İkinci Dünya müharibəsi hadisələrindən sonra ona beynəlxalq, o cümlədən siyasi diqqətin artmasını araşdırır. Sözügedən bəyannamənin işlənib hazırlanması və qəbulu tarixi öyrənilir.

Bioetik prinsiplər və bioetika bu sahənin inkişafına töhfə vermiş müxtəlif alimlərin formalaşdırdığı elmi yanaşma və təriflər əsasında nəzərdən keçirilir. Sənəddə təqdim olunan mövzuların geniş əhatəsi bioetik prinsiplərin universallığının təsdiqi kimi, eyni zamanda, bunun əksinə olaraq, qeyri-spesifik xarakter daşıması kimi qeyd olunur. Universal bioetik prinsiplər də onların siyasi məzmunu prizmasında nəzərdən keçirilir, xüsusən, sosial məsuliyyət prinsipi və s.

Bioetika elmi istiqamət kimi biosiyasət prizmasında da öyrənilir, çünki bəzi müəlliflərin elmi yanaşmalarına uyğun olaraq bu iki anlayış bir-biri ilə bağlıdır və bioetika sosial hərəkat kimi yaranmışdır. Üstəlik, bioetikanın inkişafı onun biosiyasəti elmi istiqamət kimi yeniləmiş siyasi gündəmə cəlb edilməsi kontekstində nəzərdən keçirilir. Müəllif bioetikanın tibbi problemlərdən daha geniş sosial məsələlərə keçidini sağlamlığın siyasi determinantları kontekstində araşdırır. Biosiyasət və ekoloji gündəm arasında əlaqə haqqında məlumatlar verilir. Səhiyyə kontekstində dövlət institutlarının işi ilə əlaqəli olan biosiyasət universal bioetik prinsiplərin həyata keçirilməsi ilə cəmiyyətdə baş verən siyasi proseslər arasında əlaqəni əsaslandırdı.

Həmçinin dissertasiyanın bu hissəsində BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi kontekstində universal

bioetik prinsiplərin əhəmiyyəti və onların ölkələr arasında dialoq vasitəsi kimi siyasi sahədə potensialı təhlil edilir. İctimai sağlamlığın qorunması ilə bağlı məsələlər kontekstində DİM-ləri təşviq etmək üçün qəbul edilmiş “Sağlamlığın möhkəmləndirilməsi üzrə Şanxay Bəyannaməsi” qeyd olunur. Bu sənəd əhalinin sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş məsələlərin həllində siyasi fəaliyyətin zəruriliyini təsdiq etdi.

**“İctimai sağlamlığın qorunması kontekstində səhiyyə siyasəti və etik məsələlər”** adlı paraqrafda ölkənin daxili və xarici siyasətinin tərkib hissəsi kimi əhalinin müdafiəsi amilinin əhəmiyyəti təsvir edilir. Bu istiqamətdə yaranan problemlərə etik aspektlər baxımından yanaşılır. Qərb elmi ədəbiyyatında geniş istifadə olunan “ictimai sağlamlıq” (ing. public health) və “sağlamlıq siyasəti” (ing. health policy/politics) terminlərinin qısa təhlili aparılır. Səhiyyə sahəsində etik problemlərin həlli imkanları məhz siyasi institutların müvafiq işinin səmərəliliyi baxımından təsvir edilir. Siyasi sistemin səmərəliliyi əhalinin sağlamlığının qorunması, bu sahədə etik dilemmaların azaldılması və universal bioetik prinsiplərin həyata keçirilməsinin uğuru baxımından nəzərdən keçirilir.

Bu paraqraf həmçinin ictimai sağlamlığın qorunmasının siyasi kontekstini və onun milli təhlükəsizliyin təmin edilməsində rolunu müzakirə edir. Müəllif müxtəlif ölkələrdə, məsələn, Rusiya Federasiyası və Çində qəbul edilmiş sağlamlığın qorunması siyasətini və dövlət proqramlarını təhlil edir. O, həmçinin Suriya və Əfqanıstandakı müharibələr kimi siyasi proseslərin ictimai sağlamlıqla bağlı məsələlərə təsirini qeyd edir.

Birinci fəslin üçüncü paraqrafında “**Əhalinin sağlamlığının qorunması dövlət siyasətinin istiqamətlərindən biri kimi və bioetik prinsiplərin rolu**” mövzusu açıqlanır. Bu paraqrafda səhiyyə sistemi dövlətin sosial siyasətinin ən mühüm istiqamətlərindən birini həyata keçirən kompleks mexanizm kimi nəzərdən keçirilir. Sağlamlıq məsələlərinin əhəmiyyəti bərabərlik, ədalət və qərəzsizlik kimi universal bioetik prinsiplər kontekstində təhlil edilir. Bioetik prinsiplərin praktiki həyata keçirilməsinin təhlili yolu ilə onların təkcə ölkə daxilində deyil, həm də beynəlxalq aləmdə həyata keçirilən dövlət siyasəti ilə əlaqəsi əsaslandırılır.

Səhiyyə siyasətinin əhəmiyyəti Overton Pəncərəsi modelinin obyektivində araşdırılır, çünki o, böyük sosial əhəmiyyətə malik olmaqla

müxtəlif siyasətlərdə, şüarlarda və s. əks oluna bilər.

Müəllif insan hüquqlarının müdafiəsi və universal bioetik prinsiplərin həyata keçirilməsi kontekstində ictimai sağlamlığın qorunmasına siyasi rejimlərin təsirini təhlil edir. Şüarları bu istiqamətlə bağlı olan siyasi partiyaların rolunu, habelə müxtəlif alimlərin əhalinin sağlamlığının qorunması ilə bağlı məsələlərə baxışlarını təhlil edir. ÜST-nin Sağlam Şəhərlər Layihəsi, Belfast Xartiyası və Sağlam Şəhərlər üzrə Zaqreb Bəyannaməsi kimi müxtəlif beynəlxalq sənədlər və bununla bağlı siyasi fəaliyyətin əhəmiyyəti araşdırılır.

Fəsli ümumiləşdirərək müəllif bəzi tədqiqatçıların[10] səhiyyə sahəsində siyasətçilərin rolunun vacibliyi və bu proseslərin səhiyyə sahəsində "sağlamlıq siyasəti" və ya səhiyyə sahəsində politologiya fənləri daxilində öyrənilməsinin və bu kontekstdə etik / bioetik aspektlərin öyrənilməsinin  zəruriliyi haqqında fikirləri ilə razılaşır.

II Fəsil **"Qlobal Səhiyyə sahəsində siyasət və bioetika"** həmçinin üç paraqrafdan ibarətdir. İşin bu bölməsində ayrı-ayrı ölkələrdə bioetikanın inkişafı kontekstində siyasət araşdırılır, qlobal sağlamlıqla bağlı müxtəlif nisbətən yeni elmi istiqamətlər, habelə bioetik prinsiplərin həyata keçirilməsində beynəlxalq institutların fəaliyyəti təhlil edilir. Koronavirus (COVID-19) pandemiyası nümunəsi ilə səhiyyə sahəsində siyasi institutların işi öyrənilib.

**"Universal bioetik prinsiplərin işlənib hazırlanması və onların milli səhiyyə sistemlərində tətbiqi üzrə beynəlxalq təcrübə"** adlı ikinci fəslin birinci bəndi müxtəlif ölkələrdə bioetikanın inkişafı üzrə fəaliyyətin dərin təhlilinə, eləcə də bioetikanın beynəlxalq səviyyədə inkişafını həyata keçirən və bu təşkilatlara üzv olan ölkələrin səhiyyə siyasətində bioetik prinsiplərin tətbiqini təmin edən qurumlar kimi qəbul edilən müxtəlif beynəlxalq təşkilatların rolu.

Səhiyyə siyasətində siyasi təsir və bioetik aspektlərin əks olunması kontekstində ilk növbədə qardaş Türkiyənin, eləcə də ABŞ, İtaliya, Almaniya və s. kimi dünya ölkələrinin təcrübəsi təqdim edilir və nəzərdən keçirilir. Belə ki, Türkiyədə 2015-ci ildə "Türkiyə Biotexnologiya Strategiyası və Fəaliyyət Planı (2015-2018)"-na uyğun olaraq yaradılmış Bioetika Şurası öz iş prosedurları çərçivəsində səhiyyə

---

[10] Bambra, C., Fox, D., Scott-Samuel, A. Towards a politics of health // Health promotion international, – 2005. 20 (2), – p. 187-193.

siyasətinin hazırlanmasında iştirak edir.

Seçkiqabağı əsas siyasi məqsədlərindən biri kimi tibbi sığorta sistemində islahatları (Obamacare tətbiqini) təyin edən ABŞ Prezidenti Barak Obamanın siyasi kursundan nümunə götürərək, səhiyyə amilinin siyasətdə əhəmiyyəti və s. əsaslandırılmışdır.

Səhiyyə və bioetika ilə bağlı milli siyasətlərə təsir kontekstində BMT, YUNESKO, ÜST, MDB, Aİ və s.-nin rolu nəzərdən keçirilir. Bu strukturlar tərəfindən qəbul edilən ən mühüm sənədlər və təşəbbüslər öyrənilir və sonradan ölkə səviyyəsində həyata keçirilir.

2.2-ci paraqraf - **“Qlobal səhiyyə sahəsində idarəetmə və diplomatiya”** yerli elmdə müvafiq, nisbətən gənc və əvvəllər təfərrüatlı şəkildə öyrənilməmiş sahələrin tədqiqini əks etdirir. Bunlardan birincisi “Qlobal Səhiyyə İdarəçiliyi” adlanır (QSİ, *ing.* Global Health Governance). Müəllif terminin mənşəyini və onun öyrənilmə dairəsini təhlil edir. Termin və onun semantik yükünün tərcüməsi problemi də qeyd olunur. Koronavirus pandemiyası bu konsepsiyaya əhəmiyyətli dərəcədə genişlənməyə və yeni mənalar əlavə etməyə imkan verdi.

Qlobal sağlamlıqla bağlı məsələlərin artan əhəmiyyəti Qlobal Sağlamlıq Diplomatiyası (QSD) kimi əlaqəli sahənin formalaşması və inkişafında da öz əksini tapmışdır. Müəllif istiqamətinin formalaşmasının tarixi təhlilini aparır və onun əhəmiyyətini politologiya kontekstində öyrənir. ABŞ Səhiyyə və İnsan Resursları Departamentinin Beynəlxalq Əlaqələr Bürosu tərəfindən QSD konsepsiyasının təyinatı, eləcə də müxtəlif tədqiqatçılar tərəfindən təklif olunan təriflər verilmişdir. Sonra müəllif QSD haqqında öz baxışını təqdim edir.

Bu paraqrafda həmçinin müxtəlif beynəlxalq sənədlər, məsələn, “Sağlamlıq Qlobaldır” strateji proqramı, Xarici siyasət və qlobal sağlamlıq Təşəbbüsü, Oslo Bəyannaməsi və s. təhlil edilir. Səhiyyə ümumbəşəri dəyər olmaqla təkcə milli deyil, həm də beynəlxalq təhlükəsizliyin təmin edilməsində həlqələrdən biridir ki, bu da əhalinin sağlamlığının qorunması və əhalinin sağlamlığının mühafizəsi sahələrinin inkişafında özünü göstərməklə QSD və QSİ sahələrinin inkişafında öz əksini tapır, və bu kontekstdə siyasi amillərin və onların həyata keçirilməsində iştirak edən siyasi institutların rolu artır.

“**COVID-19 pandemiyasının nümunəsində qlobal səhiyyə məsələlərində siyasi amillər**” adlı 2.3.-cü paraqrafı müxtəlif siyasi strukturların, eləcə də siyasi liderlərin fəaliyyətində əks olunan QSD və

QSİ kimi istiqamətlərin praktiki tətbiqinin öyrənilməsinə yönəlmişdir. Qlobal səhiyyə çoxlu siyasi aktorlardan ibarət olan mürəkkəb şəbəkə kimi təhlil edilir. Müəllif QSD-nin strukturunu dövlətlərdən, hökumət və qeyri-hökumət xarakterli beynəlxalq təşkilatlardan və müxtəlif, o cümlədən lobbi qruplarının təmsil olunduğu vətəndaş cəmiyyətindən ibarət "tapmaca" kimi təqdim etməyə cəhd edir.

COVID-19 pandemiyası onun ölkələr daxilində və ölkələr arasında siyasətə təsiri kontekstində araşdırılır. O, həm əməkdaşlığa, həm də maraqların toqquşmasına təkan vermişdir və ictimai sağlamlığın siyasi amil kimi əhəmiyyətini yüksəltmişdir. İşin bu hissəsində ABŞ, Rusiya və digər ölkələrin pandemiyaya cavab tədbirlərinin nümunələri araşdırılır.

Müəllif “covid geosiyasəti”, “vaksin aparteid”, “atma siyasəti” (*ing*. punt politics) və s. kimi yeni terminlərin meydana çıxdığını qeyd edir. Həmçinin, ayrı-ayrı siyasi liderlərin təklifləri və Aİ daxilində səhiyyə sistemlərinin davamlılığının artırılmasına yönəlmiş "EU4Health" proqramının təklifləri fonunda ortaya çıxan Pandemiya Müqaviləsi layihəsinin hazırlanması barədə də məlumat verilir.

Üç paraqrafdan ibarət “**Azərbaycan Respublikasının səhiyyə sistemində dövlət siyasətinin prioritetləri və bioetik prinsiplərin əks olunması**” adlı III fəsildə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Respublikasının səhiyyə sahəsində milli və beynəlxalq səviyyədə müasir siyasi kursu və bioetik prinsiplərin müvafiq dövlət proqramlarında və sənədlərdə əks etdirilməsinin vacibliyi təhlil edilir. Müasir səhiyyə siyasətinin əsasları və Prezident İlham Əliyevin koronavirus pandemiyası dövründə xarici siyasət uğurları haqqında məlumat verilir.

**“Azərbaycanın əhalinin sağlamlığının qorunması sahəsində mövcud siyasi kursunun əsas vəzifələri və prioritetləri”** adlı 3.1 paraqrafında ölkənin sosial-iqtisadi inkişafının əhəmiyyətinin təsvirini, onun əhalinin hərtərəfli müdafiəsi üçün ilkin şəraiti yaratmasını əhatə edir. XX əsrin 90-cı illərinin siyasi hadisələrinə qısa ekskursiya verilir və ölkənin uğurlu inkişafında yeni tarixi mərhələnin əsasını qoyan Ümummilli lider Heydər Əliyevin müstəsna rolu vurğulanır. Heydər Əliyev siyasətinin həm milli, həm də beynəlxalq səviyyədə mühüm elementləri, o cümlədən “neft strategiyası”nın formalaşdırılması, müasir uğurların əsaslarını qoyan islahat proqramlarının başlanması qeyd olunur. Paraqrafda Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyevin rəhbərliyi altında qələbə ilə başa çatan Vətən (İkinci Qarabağ) müharibəsinin tarixi əhəmiyyəti vurğulanır.

Dissertasiyanın bu hissəsində 2021-ci ildə qəbul edilmiş və ölkənin siyasi kursunun cari vəzifələrini və prioritetlərini əks etdirən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı mühüm sənəd qeyd olunur. Sənəddə qeyd olunan prioritetlər (məqsədlər) ümumbəşəri bioetik prinsiplərin əks olunması baxımından təhlil edilir. Bu paraqrafda səhiyyə məsələlərinə verilən əhəmiyyət və diqqət də qeyd olunur ki, bu da digər məsələlərlə yanaşı, bu sahədə büdcədən maliyyələşmənin əhəmiyyətli dərəcədə artması ilə ifadə olunur. Səhiyyə sektorunun müasir inkişafı, o cümlədən icbari tibbi sığorta sisteminin tətbiqi, TƏBİB kimi yeni strukturların yaradılması, eləcə də bu sahədə dövlət proqramlarının təhlili aparılır.

**"Azərbaycanın səhiyyə sahəsində milli qanunvericiliyində və dövlət siyasətində bioetik prinsiplərin əks olunması"** adlı 3.2 paraqrafında daxili sosial siyasətin mühüm tərkib hissəsi kimi əhalinin sağlamlığının qorunması üzrə daxili siyasətin və qanunvericiliyin daha ətraflı təhlilinə yer verilmişdir. Əhalinin sağlamlığının qorunmasının təmin edilməsi kontekstində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolu vurğulanır. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) gördüyü mühüm işlər də qeyd olunur.

Əsərin bu hissəsində əsas insan hüquqlarından biri olan sağlamlıq hüququnun mənbələrində bioetik prinsiplərin əks olunması haqqında məlumat verilir. İlk növbədə, bu, Azərbaycan Respublikasının Konstitusiyasıdır. Müəllif həmin prinsiplərin müxtəlif sənədlərdə və dövlət proqramlarında, habelə Azərbaycan Respublikasının qanunlarında, məsələn, "Əhalinin sağlamlığının qorunması haqqında", "Tibbi sığorta haqqında" və digər qanunlarda əks olunmasını təhlil edir.

Bu paraqrafda 2020-ci ildə ölkənin ərazi bütövlüyünün bərpası ilə bağlı yeni fəaliyyət sahələrinin inkişafı da qeyd olunur. Ölkədə bioetikanın inkişafı kontekstində Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti yanında YUNESKO-nun Bioetika, Elm və Texnologiyanın Etikası üzrə Milli Komitəsinin, eləcə də YUNESKO-nun Bioetika üzrə Kafedrasının Azərbaycan bürosunun fəaliyyəti haqqında məlumat verilir. Dəstəyi və təşəbbüsü ilə ölkəmizdə mühüm beynəlxalq tədbirlərin, məsələn, 2017-ci ildə Dünya Tibbi Hüquq Assosiasiyasının

50-ci Yubiley Konqresi və s. keçirilməsi Büronun fəaliyyətinin təhlili kontekstində göstərilir və ölkədə bioetika kimi elmin və digər müasir elm sahələrin inkişafını təmin edən siyasi dəstəyin olması əsaslandırılır.

**"COVID-19 pandemiyası kontekstində Azərbaycanın səhiyyə siyasəti"** adlı 3.3. paraqrafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təkcə daxili siyasi addımları deyil, həm də pandemiya fonunda xarici siyasət fəaliyyətinin uğurları təhlil edilir. İlk növbədə, bu, şübhəsiz ki, 44 günlük Vətən Müharibəsində parlaq qələbədir.

Uğurla həyata keçirilən daxili siyasət, o cümlədən tibb işçilərinin mükafatlandırılması, Azərbaycan Respublikası Prezidentinin 19 mart tarixli Fərmanına uyğun olaraq Koronavirusla Mübarizəyə Dəstək Fondu, "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanının qəbul edilməsi və digər tədbirlər təsvir olunur.

Bu paraqrafda koronavirus pandemiyasına qarşı qlobal mübarizə kontekstində formalaşan və həyata keçirilən mühüm beynəlxalq təşəbbüslər təhlil edilir. Belə ki, məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ildə BMT Baş Assambleyasının 31-ci Xüsusi Sessiyası keçirilmiş, 2021-ci il martın 23-də isə BMT İnsan Hüquqları Şurasının 46-cı sessiyası zamanı ölkəmizin təşəbbüsü ilə "Koronavirus xəstəliyi (COVID-19) pandemiyasına cavab olaraq bütün ölkələrin vaksinlərə ədalətli, sərfəli, vaxtında və universal çıxışının təmin edilməsi haqqında" qətnamə qəbul edilmişdir. Əlavə olaraq, bu qətnamə Azərbaycan Respublikası tərəfindən Qoşulmama Hərəkatına üzv ölkələr adından təqdim edilib ki, bu da xarici siyasətin uğurunu təsdiqləyir.

Artıq 2021-ci ilin əvvəlində peyvəndlərin vaxtında alınması və kütləvi peyvəndin erkən başlanmasının təmin edilməsi Azərbaycana dünyada ilk ölkələrdən biri və Cənubi Qafqaz regionunda əhalinin sağlamlığına qayğını uğurla həyata keçirən ilk ölkə olması üçün imkan yaratmışdır. Azərbaycan həmçinin COVAX (COVİD-19 peyvəndlərinə qlobal əl çatanlığın təmin edilməsi fondu) ilə fəal əməkdaşlıq edib ki, bu da 4 aprel 2021-ci il tarixində bu proqram çərçivəsində vaksinlərin ilk partiyasını əldə etməyə imkan vermişdir. Buna əlavə olaraq, humanitar yardımın göstərilməsi yolu ilə dünyanın digər ölkələrinə dəstək verilmişdir. Belə ki, Azərbaycan ehtiyacı olan Afrika ölkələrinə 100 min

doza peyvənd göndərib. Elmi işin bu hissəsində uğurlu daxili və xarici siyasətin təhlili yolu ilə ölkənin QSD çərçivəsində fəal iştirakı əsaslandırılır. Yuxarıda göstərilən aspektlər universal bioetik prinsiplərin həyata keçirilməsi kontekstində də təhlil olunur.

**Dissertasiya işinin yekun hissəsində** tədqiqatın nəticələri ümumiləşdirilir və əldə edilən nəticələr təhlil edilir. İlk növbədə qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən müasir siyasi kurs, yüksək etik (bioetik) prinsiplərin həyata keçirilməsinə sadiqlik təkcə ölkə daxilində deyil, həm də, COVID-19 pandemiyası zamanı müəyyən olduğu kimi, beynəlxalq arenada da əks olunur.

Beynəlxalq təcrübə kontekstində müəllif belə qənaətə gəlir ki, səhiyyə siyasəti (və ya səhiyyə sahəsində siyasət) dünyanın müxtəlif ölkələrində dünya təcrübəsində siyasi institutların işi kontekstində yüksək aktuallıq kəsb edir və o, əsasən müxtəlif bioetik proqramların, müvafiq strukturların yaradılması ilə və s. xarakterizə olunur. Bu proqramlar milli səviyyədə ÜST, YUNESKO və s. kimi ixtisaslaşmış strukturların köməyi ilə əlaqələndirilir. Müəllif həmçinin belə qənaətə gəlir ki, qeyd olunan prosesləri dövlət siyasəti ilə sıx bağlı olan QSD və QSİ çərçivəsində izlənməsi mümkündür.

Koronavirus pandemiyasından nümunə götürərək belə qənaətə gəlinir ki, bütün dünya birliyi üçün ümumi olan yaranan çağırışları, ilk növbədə, siyasi institutların milli səviyyədə ancaq vaxtında və səriştəli işi ilə aradan qaldırmaq olar.

İşin əlavəsi **"Universal bioetik prinsiplərin həyata keçirilməsi üzrə dövlət siyasəti çərçivəsində yeni kurs və proqramların tətbiqi ilə bağlı təkliflər"** mövzusu ilə təqdim olunur. Müəllif tədqiqat zamanı əldə etdiyi məlumatlara əsaslanaraq əhalinin sağlamlığının qorunması ilə bağlı məsələlərin siyasi əhəmiyyətinin artması, qlobal proseslərlə sıx əlaqəsi və onlarda universal bioetik prinsiplərin əks olunması barədə nəticəyə gəlir.

Müəllif bu dissertasiya işində apardığı tədqiqatların təhlili əsasında siyasətçilərin, müxtəlif siyasi institutların təmsilçilərinin, yerli və qlobal səhiyyənin idarə edilməsi və siyasəti sahəsində işə cəlb olunmuş mütəxəssislərin hazırlanmasında potensial faydalı və istifadə oluna biləcək təklifləri nəzərdən keçirmək fikirlərini irəli sürür. Beləliklə,

aşağıdakılar nəzərdən keçirilməsi üçün təklif olunur: 1) QSD kursunun öyrənilməsi və tətbiqi, həmçinin QSİ kursunun politologiya kontekstində tədrisinin genişləndirilməsi; 2) beynəlxalq münasibətlər və səhiyyə/bioetika sahəsində ikili ixtisaslaşma kurslarının həyata keçirilməsi; 3) erkən karyera tədqiqatçıları üçün Tədqiqatın məsuliyyətli aparılması kursunun geniş tətbiqi imkanlarının qiymətləndirilməsi; 4) sağlamlığın siyasi determinantları və bio-siyasəti üzrə tədqiqatların gücləndirilməsi. Belə ki, təqdim olunan təkliflər təkcə respublikanın ali məktəblərində mühazirələrin aparılması zamanı deyil, həm də bu istiqamətlər üzrə milli elmi bazanın genişləndirilməsi məqsədilə qeyd olunan istiqamətlər üzrə sonrakı tədqiqatların ilkin şərti kimi və elmi konfransların təşkili baxımından praktiki əhəmiyyət kəsb edə bilər.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Jafarova, L., Mammadov, V. Ethical Issues in Public Health Policy: International Practice and Azerbaijan / L.Jafarova, V.Mammadov. - Beau Bassin: LAP Lambert Academic Publishing, - 2017. - 57 p.
2. Jafarova, L.A. COVID-19: International Relations and Global Health Diplomacy // - Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, - 2021. 4 (76), - s. 271-282.
3. Мамедов, В., Джафарова, Л. Биоэтические принципы в призме политики безопасности Каспийского региона // Сборник научных статей по материалам Международной научно-практической конференции – «Проблемы комплексной безопасности Каспийского макрорегиона». Астрахань, Российская Федерация. Изд. дом “Астраханский университет”, - 28-29 октября - 2021 года, - с. 119-126.
4. Jafarova, L. Political aspects of the ethical issues in global health // Global Health Governance. The Scholarly Journal for The New Health Security Paradigm, - 2022. Vol. XVII, No. 1, - p. 119-129.
5. Джафарова, Л.А. Глобальное управление здравоохранением // - Bakı: “Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmləri seriyası” dövri-elmi jurnal, - 2022. 70 (2), - s. 65-72.
6. Cəfərova, L.A. “Qlobal səhiyyə diplomatiyası” beynəlxalq münasibətlərdə müasir istiqamətin nümunəsi kimi // - Bakı:

Sumqayıt Dövlət Universiteti Elmi xəbərlər. Sosial və Humanitar elmlər bölməsi, - 2022. 18 (3), - s. 42-46.
7. Jafarova, L., Mammadov, V. Global Health Politics and Bioethics / L.Jafarova, V.Mammadov. – Chișinău: Generis Publishing, - 2022. – 56 p.
8. Джафарова, Л.А. Политика в области глобального здоровья и договор о пандемиях // - Bakı: "Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmləri seriyası" dövri-elmi jurnal, - 2023. 19 (1), - s. 60-65.
9. Jafarova L. Artificial Intelligence and Digital Diplomacy / E-International Relations. – August 1, 2023. URL: https://www.e-ir.info/pdf/102059
10. Jafarova, L.A. Role of politics in a globalised world: case of global health and COVID-19 // - Одеса: Науковий журнал «Politicus», – 2023. № 4, - p. 144-151.
11. Jafarova, L.A. Politics, diplomacy and governance of global health // - Одеса: Вісник Львівського університету. Філософсько-політологічні студії, - 2023. № 49, - p. 239–248.
12. Jafarova, L.A. Role of political institutions in global governance // - Baku: "Scientific works" The International Scientific and Theoretical Journal, - 2023. №2 (41), - p. 102-107.
13. Jafarova, L.A. The role of political institutes in the healthcare policy of the state // "Qədim Diyar" Beynəlxalq elmi jurnal. II Beynəlxalq humanitar və ictimai-elmlər konfransının materialları, - Bakı, - 19 may 2023, - s. 45-47.
14. Jafarova, L.A. Political institutes and diplomacy in global health // "Elmi iş" Beynəlxalq elmi jurnal. XV Beynəlxalq Elmi Araşdırmalar Konfransı, - Bakı: "Azərbaycan" nəşriyyatı, - 8 oktyabr 2023, - s. 51-53.
15. Jafarova, L.A. Political institutions and their role during health emergencies of global scale (COVID-19) // Proceedings of the 7th International Scientific and Practical Conference «International Scientific Discussion: Problems, Tasks and Prospects», Brighton: Scientific Collection «InterConf+», - 19-20 October 2023, - № 38 (175), - s. 141-149.

Dissertasiyanın müdafiəsi “18”aprel 2024-cü il tarixində saat 11:00 Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “18” _mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.03.2024
Kağızın formatı: A5
Həcm: 38.216
Tiraj: 30